**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



Firuzə Məmmədlinin 75 illik yubileyi münasibəti ilə

# İldən-ilə gəncləşən şairə

**(metodik vəsait)**

**BAKI – 2015**

# Tərtibçidən:

Tariximizin qəhrəmanlıq səhifələrində həmişə Azərbaycan qadınının öz şöhrəti, öz şərəfi olmuşdur. “ Kitabi Dədə Qorqud ” dastanında igid Buğacın anası, Koroğlunun sadiq Nigarı, Qaçaq Nəbinin silahdaşı Qoçaq Həcəri – xalqımızın iftixarlarıdır. Xalqımızın keçmişində Nüşabəsidə olub, Sara xatunu da... Həmçinin Cəlil Məmmədquluzadənin qələmindən doğmuş “ Ölülər ” in üfunəti içində çarpışan Nazlı kimi kövrək qızcığazıda. Bəlkə elə Nazlımız da şeir yazmağı bacarırdı.Çünki, balaca, atasına həmişə yalvarışlarını belə şeirlə deyərdi.

Yalvarıram qohum-qardaşa
Bax gözümdən axan yaşa,
Baxtımı döndərmə daşa,
Vermə məni yada ata!
Salma yanar oda, ata!

Sənət, şeir nümunələri yaratmaq həmişə zəhmətlə, çətinliklə yaranır. Qadın sənətkarların zəhməti isə bu işdə ikiqat olur. Onlar bu yükü zərif çiyinlərində daşıyırlar. Ədəbiyyat tarixində antik yunan şairi Safodan başlayaraq, XX əsrdə yazıb yaratmış bir çox qadın sənətkarlar bu ikiqat ağırlıqdan dönə-dönə danışmışlar. İslam ölkəsində yaşayan qadın şairlərin isə işi daha çətin idi. Bu iş onlardan həm də cəsarət və hünər tələb edirdi.

Arvadla kişini bağlayır kəbin,
Bu işə yol verir şəriət, ayin,
Mənimsə kəbinim bir rübaidir!
Varmı bu kəbinə yol verən bir din?

Bu sözləri 800 il bundan qabaq söyləmiş Məhsəti Gəncəvi öz sualının cavabını da bilirdi. Bilirdi ki, belə bir kəbinə yol verən bir din yoxdur. Bunu Məhsəti Gəncəvi ilə yanaşı sonrakı dövrlərdə yazıb yaratmış – Natəvan da, Heyran xanım da, Kəmnə də, Aşıq Pəri də bilirdilər. Şairlər xalqın ümumi müsibətlərinə - zəlzələlərə, talanlara, müharibə qırğınlarına acıyırlar. Onlar Şərq qadınının ümumi acı taleyinə - hüquqsuzluğa, bərabərsizliyə acıyırlar. Məhsətinin zərif poeziyası, Natəvanın kövrək lirikası, Heyran xanımın təkrarsız yaradıcılığı bunlara nümunədir. Müasir Azərbaycan ədəbiyyatı nümayəndələrindən isə Firuzə Məmmədli belə yazıçılarımızdandır. Belə zəhmətlərlə ədəbiyyat tariximizdə gözəl incilər yaratmış qadın şair və yazıçılarımızı yaşatmaq, gələcək nəsillərə tanıtmaq üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasının da üzərinə mühüm bir vəzifə düşür. Bu sənətkarların həyat və yaradıcılığının təbliğində kömək məqsədi ilə təqdim etdiyimiz bu vəsait isə Azərbaycan XX əsr Azərbaycan

ədəbiyyatının görkəmli nümayəndəsi Firuzə Məmmədli haqqındadır. Vəsaitdə yazıçının həyat və yaradıcılığı ilə yanaşı, sənət yoldaşlarının onun haqqında söylədiyi fikirlər, kitablarının sərgisi verilmişdir. Keçiriləcək tədbirlər bölməsində isə şairin yaradıcılığı ilə tanış olmaq məqsdi ilə keçirilən ”Poetik düşüncənin kəşf olunmmış zirvəsi ” adlı ədəbi-bədii gecə” nin ssenarisi təqdim edilmişdir. Gecədə yazıçının Qarabağ mövzusunda yazdığı əsərlərindən istifadə edilib.

**Həyat və yaradıcılığı:**

1940-cı ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunun Canaxır kəndində ziyalı ailəsində dünyaya gəlmiş Məmmədova Firuzə Nurəddin qızı 1949 - 1958-ci illərdə Hülövlü kənd orta məktəbdə təhsilini gümüş medalla başa vurmuşdur.1960-cı ildə Quba Tibb Texnikumuna daxil olmuş və 1963-cü ildə texnikumu əla qiymətlərlə bitirmişdir. 1964-cü ildə isə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuş, 1968-ci ildə isə İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir. 1968-70-ci illərdə təyinata əsasən Naxçıvan şəhər Pedaqoji Texnikumunda və ADPU-nun Naxçıvan filialında müəllim işləmişdir. 1970-ci ildə Bakıya qayıdaraq bitirdiyi İnstitutun Azərbaycan dilçiliyi kafedrasında işə qəbul olunmuşdur. 1980-ci ildə “ Y.V.Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri ” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. “Y.V.Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri”, “ Bədii dilin estetik mənbələri ”, “ Azərbaycanın şimil-şərq bölgəsinin etnolinqvistik vahidləri ” monoqrafiyaları, eləcə də cildə daxil edilmiş elmi və publisistik məqalələri mütəxəssis alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetində işlədiyi 50 il ərzində yüzlərlə müəllim kadrlarının hazırlanmasında onun da xüsusi xidmətləri vardır. Firuzə Məmmədli həm də Respublikamızın hüdudlarından xaricdə belə tanınan istedadlı şairlərimizdəndir. “ Gümüşü damla ” adlanan ilk kitabı 1972-ci ildə “ Gənclik ” nəşriyyatı tərəfindən çap edilmişdir. Bundan sonra nəşr olunan “ Yoluma bahar düşüb ”, “ Sənin ömrün” “ Yetkinlik ”, “ Bir qarış ucalıq”,“ Məni mənlə bölən dünya ”, “ Dilək yaxasına dönnəm yenidən ”,“ Aşacağam zaman adlı sədləri ” və s. poetik topluları ədəbi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanmışdır. 2002 - 2012-ci illər ərzində şairənin altıcildlik “ Seçilmiş əsərləri ” çapdan çıxmışdır. Firüzə Məmmədli qələmini nəsr və tərcümə işində də sınamış, dünya ədəbi nümunələrinin dilimizə çevrilməsi sahəsində bir sıra işlər görmüş - rus, özbək, tacik, türk və fars dillərindən tərcümələr etmişdir.

Firuzə Məmmədlinin şeirlərindən nümunələr ingilis, rus, özbək, türkmən, gürcü, ukrayna, polyak, fransız, türk və fars dillərinə tərcümə edilmişdir. 1992-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən " Türkyənin Uluslararası Şeir Şöləninin " üç böyük mükafatından biri olan " Əlişir Nəvai " mükafatına layiq görülən şairə, sonrakı illərdə dəfələrlə belə festivalların və simpoziumların iştirakçısı olmuş, bir sıra diplom və sertifikatlarla mükafatlandırılmışdır. Respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak etmiş Firuzə Məmmədli 28 şeir, nəsr və elmi tədqiqat əsərləri, o cümlədən dörd monoqrafiyanın və çoxsaylı elmi və publisistik məqalənin müəllifidir. Firuzə Məmmədli 2008-ci ildən Prezident təqaüdçüsüdür. O, ADPU-nun 90 illik yubileyi münasibəti ilə " Tərəqqi " medalı ilə təltif edilmişdir.

Çağdaş Azərbaycan ədəbiyyatımızda Firuzə Məmmədli imzası bu gün özünəməxsus yer tutur. Çoxşaxəli yaradıcılığa malik Firuzə Məmmədlinin uzun illərdən bəri həm poeziya, həm nəsr, həm də publisistika sahəsindəki uğurlu fəaliyyəti onu Azərbaycan ədəbiyyatının dəyərli nümayəndələrindən biri kimi tanıdıb. Firuzə Məmmədlinin qələmindən çıxmış çox sayda şeir, hekayə və digər janrlarda olan əsərləri müəllifinə yaradıcılığında böyük uğurlar gətirib,ona geniş oxucu məhəbbəti qazandırıb.Yaradıcılığa hələ kiçik yaşlarından başlayan şairin ilk şeir kitabı 1972- ci ildə işıq üzü görüb. Sonralar isə " Gümüşü damla ", " Yoluma bahar düşüb ", " Sənin ömrün ", " Yetkinlik ", " Bir qarış ucalıq ", " Məni mənlə bölən dünya ", həmçinin çoxcildli " Seçilmiş əsərlər "inin də müəllifidir. Elmi yaradıcılıqlda məşğul olan şairin " Bədii dilin estetik mənbələri " adlı elmi əsəri dilçilik elmimizə gözəl töhfə olmuşdur. Tərcümə fəaliyyətində isə yazıçı tacik, özbək, türk, rus ədəbiyyatı nümunələrini dilimizə ustalıqla tərcümə etmişdir.

**Keçiriləcək tədbirlər:**

Çağdaş Azərbaycan ədəbiyyatında Firuzə Məmmədlinin imzası özünəməxsus yer tutur. Çoxşaxəli yaradıcılığa malik Firuzə xanımın uzun illərdən bəri həm poeziya, həm nəsr, həm də publisistika sahəsindəki uğurlu fəaliyyəti onu Azərbaycan ədəbiyyatının dəyərli nümayəndələrindən biri kimi tanıdıb. Firuzə Məmmədlinin qələmindən çıxmış çox sayda şeir, hekayə və digər janrlarda olan əsərlər müəllifinə böyük uğur gətirib, ona geniş oxucu məhəbbəti qazandırıb. Ömrünün yeddinci onilliyinin beşinci baharına yekun vuran Firuzə Məmmədli bu gün də coşqun yaradıcılıq ilhamı ilə yazıb-yaradır, əsərlərilə oxucuları sevindirməkdə davam edir.

Təbii ki, yubilyar ədibimizin yaradıcılığı tədqiqatçıların diqqətindən kənarda deyil, onun əsərləri haqqında ardıcıl olaraq məqalələr yazılır, araşdırmalar qələmə alınır. F.Köçərli adına Respublika Uşaq kitabxanası olaraq şairənin yubileyi ilə bağlı, hazırladığımız vəsaitdə onun yaradıcılığı ilə oxucuları yaxından tanış edəcək, kitab sərgisi, həmçinin yubileyi münasibətilə Firuzə xanımın yazdığı şeirlərindən bir neçəsini, oxucularımıza təqdim edəcək, ədəbi-bədii gecənin ssenarisini təqdim edəcəyik.

Kitabxanada ədəbiyyatın təbliği formalarından biri oxucuları çap əsərlərində təsvir edilən real, həyati faktlarla tanış olması üçün hadisələrlə, bu əsərlərin müəlliflərinin həyat və fəaliyyətləri ilə tanış olmağa imkan yaradan kitab müəllifləri ilə görüşlər, ədəbi-bədii gecələrdir. İlk əvvəl oxucularımızın sevimli şairimiz haqqında olan fikirlərini öyrənmək məqsədilə anket sorğuları hazırlamaq məqsədəuyğundur. Bunu nəzərə alaraq sorğumuzu sizlərə təqdim edirik.

**1)** Firuzə Məmmədli kimdir?

____________________________________

**2)** Şairənin hansı əsərlərini oxumusunuz?

____________________________________

**3)** Hansı mövzuda yazdığı şeir və ya hekayəsindən daha çox xoşunuz gəlib?

____________________________________

**4)** Qarabağ müharibəsindən bəhs edən hekayələri hansılardır?

____________________________________

**5)** “ Ruhun qisası ” hekayəsində əsir götürülmüş Azərbaycanlı qızın sonra babasının qatilinə çevrilməsinə münasibətiniz necədir?

____________________________________

**6)** Günəş tarlasında al günün altda,
Yanırdı barmağı əl boyda kəndin.
Cəhənnəm saçırdı sünbül sığalı,
Xırmanı ac idi vəl boyda kəndin.

Firuzə Məmmədlinin “ Mələklik insana enirdi onda ” adlı şeirindən olan bu parça hansı mövzuda yazılmışdır?

a. təbiət
**b.** vətənpərvərlik
c. dini

**7)** Yazıçının novruzun gəlişindən bəhs edən şeiri hansıdır?

a. “ Ruhum qaranquş yuvasına qayıdacaq ”
**b.** “ Təzə il Novruzdur ”
c. “ Xəbərsiz ”

**8)** “ Şeir deyirdi o gün ” şeirini müəllif hansı əlamətdar gün münasibətilə yazmışdır?

**a.** Fransanın Strasburq şəhərində keçirilmiş Türkyənin Uluslararası Şeir Şöləninin 8-ci ildönümü münasibətilə.
b. Xalq yazıçısı İlyas Əfəndiyevin yubileyi münasibətilə
c. Ana dili günü üçün

**9)**“ Xocalı ” faciəsindən bəhs edən müəllifin hansı şeiri var?

a. Qarabağ
**b**. Xocalı
c. Müharibə

Oxucuların maraq dairələrini nəzərə alaraq kitabxanaçı tədbir başlamazdan öncə mövzu ilə bağlı ədəbiyyatı təbliğ edir, sərgilər hazırlayır, mövzu üzrə oxucuları məlumatlandıran bukletlər, yaddaşlar hazırlayır.

Tədbirin başlanğıcı üçün sərgilərin təşkili vacibdir. Sərgiyə şairin kitabları, onun haqqında nəşr olunmuş kitab və dövri mətbuatdan materialları, şairin foto-şəkilləri yerləşdirilməlidir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar: Nümunələr veririk: ***“ Xalq məhəbbəti qazanmış şairə ” “ Zamandan zamana damsa söz damar*** ” və s. Sərgidə istifadə etmək üçün sənət yoldaşları və digər tanınmış şəxslərin şairə haqqında fikirlərini də aşağıda veririk.

**Sitatlar:**

Firuzə Məmmədli Azərbaycan poeziyasının zəngin ədəbi ənənələrini davam və inkişaf etdirən şairlərimizdəndir. Onun şeirləri də özünə bənzəyir: Bir az kövrəkdi, bir az həzindi yeri gələndə də bir az sərtdi.

**Xalq yazıçısı Anar.**

Yaradıcılığı etibarı ilə Firuzə xanım ildən-ilə gəncləşən şairdir.

**Xalq şairi Fikrət Qoca**

Firuzə Məmmədlinin müşahidələri elə canlıdır ki, onun müraciət elədiyi mövzular oxucunun da öz dərdinə, öz sevincinə çevrilir.

**Filalogiya elmləri namizədi Bədirxan Əhmədov.**

Yaxşı olmağa çalışmayan, olduğu kimi yaşayan Firuzə xanım əlindən gələni bacardığı dərəcədə gerçəkləşdirməklə məşğuldur.

**Filalogiya elmləri doktoru Arif  Əmrahoğlu.**

Uzun illər məktəbdə bizə iki şairə tanıtmışlar; Nigar Rəfibəyli və Mirvarid Dilbazi.İndi şeirə çox istedadlar gəlib. Onlardan biri də Firuzə Məmmədlidir

**Filalogiya elmləri doktoru Şamil Salmanov.**

Şer var onu ürəklə oxuyursan, şer də var gözlə oxuyursan. Firuzə xanımın şeirləri ürəklə oxuduğum şeirlərdəndir.

**Filalogiya elmləri doktoru Akif  Hüseynov**.

İnsanın bu kainatda tənhalığı var. Ancaq mən Firuzə xanımın şeirlərində başqa bir yönü gördüm; xalqın həyatı ilə bağlılıq.

**Filalogiya elmləri namizədi Safura Quliyeva.**


















Gecənin daha maraqlı olması üçün görüşə Firuzə Məmmədli və onun sənət yoldaşlarını dəvət edirik. Həmçinin Firuzə Məmmədli yaradıcılığını daha yaxşı izləyən oxucular Firuzə Məmmədli ilə görüşdə kitabxana işçiləri tərəfindən seçilərək iştirak edirlər.

**I aparıcı:** Əziz tədbir iştirakçıları və hörmətli qonaqlar, bu gün bu görüşü Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, məxsusi yaradıcılıq manerası, orijinal dəsti-xətti olan, poetik düşüncələrinin təravəti ilə seçilən xanım şairəmiz Firuzə Məmmədlinin 75 illik yubileyi münasibəti ilə təşkil etmişik.

**II aparıcı:** Onun gərgin, çoxşaxəli yaradıcılıq əməyinin bəhrəsi olan əsərləri bu gün oxucular tərəfindən sevilə-sevilə oxunan ədəbiyyat nümunələrimizdəndir.

**I aparıcı:** Hələ gənc yaşlarından ədəbiyyat aləminə – şeirə, poeziyaya gələn, hər misrasında bir insan ömrü gizlənən şairənin Seçilmiş əsərləri ”nin V cildində onun, yaradıcılığı haqqında yazılan məqalələr, povestləri, hekayələri, səfər qeydlərindən nümunələri oxuyanda bunun bir daha şahidi oluruq.

**II aparıcı:** Firuzə Məmmədli, yaradıcılığının ilk illərindən ədəbi tənqidin diqqətini cəlb etmiş və o öz poetik nümunələri ilə oxucularının dərin rəğbətini qazanmışdı. Zaman keçdikcə oxucuları şairə Firuzə Məmmədilini, nasir kimi də tanımağa başlamışdı. Əlbəttə, öz yaradıcılıq dünyasında bir neçə sahəni əhatə edən, istər bədii, istər elmi, istərsə də publisistik yaradıcılığında oxucu qəlbini fəth edən istedadlı xanımın çoxşaxəli yaradıcılıq dünyasından danışmaq bir qədər məsuliyyətlidir.

**I aparıcı:** Bununla belə, Firuzə Məmmədlinin “ Seçilmiş əsərləri ”nin

V cildi bizə imkan verir ki, bu dəfə onun nəsri haqqında bir qədər geniş söhbət açaq. Firuzə Məmmədlinin nəsri də poetik nümunələri kimi ahəngdar, duyumlu, ürəyə yatandır.

**II aparıcı:** Sənət adamı, söz xiridarı üçün poeziya ilə nəsr arasında sərhəd yoxdur. Sadəcə, xalq şairi Fikrət Qocanın təbirincə desək, şeirə gəlməyən mövzular var. Şairsə bu mövzulara arxa çevirib gedə bilmir. Nəsr və ya nəzmlə yazılmasından asılı olmayaraq, Firuzə Məmmədli qələmindən süzülüb gələn hər misra, hər sətir öz orijinallığı ilə seçilir. Firuzə Məmmədli yaradıcılığında dil insan üçün müqəddəs olan varlıqlardan biri, bəlkə də birincisidir. Çünki hər bir xalqın milli varlığının ilkin göstəricisi onun milli dilidir. Bu barədə çox demək, çox danışmaq olar.

**I aparıcı:** Firuzə xanım, yazdığı şeirlərin birində “ Səni duymadığım anı bağışla, ağlım hisslərimi yönəldə bilmir ” – deyir. Bu misralar onun ömrünü-gününü, ağlını, hissini, bütün varlığının tədqiqinə, təbliğinə, saflığının qorunmasına və zənginləşməsinə sərf etdiyi doğma dilimizi vəsf edən “Dilim” şeirindəndir.

Dəyişə bilmədim , məni bağışla,
Gözüm gördüyünü yanılda bilmir.
Səni duymadığım anı bağışla,
Ağlım hisslərimi yönəldə bilmir.

( Şeirin davamını oxucu söyləyir )

**II aparıcı:** Müsahibələrinin birində şeirin ilk misrası haqqında belə demişdir: “ Bilirsinizmi, mən şeirlərimin əksər qismini birinci şəxsin dilindən səsləndirirəm. Deməliyəm ki, bu şeirlərdəki lirik “ mən ” ümumiləşmiş obrazdır. Hamı özü üçün “ mən” dir.

**I aparıcı:** Əslinə qalsa, “ Sən ” i duymadığım anı bağışla ” misrası isə hamıya aiddir. Dili, Vətəni, valideyinləri qarşısında azacıq da olsa, günahı olanların hər biri diz çöküb bu müqəddəslər qarşısında üzr istəməlidir. Bəs belə olduqda ağlın hissləri yönəldə bilməməsini nə ilə izah etmək olar? Bir baxın, görün nə deyir şeirin davamı:

**II aparıcı:**
Soyuqluq dünyanın özü boydadır, -
Içindən - çölünü isitmək olmur.
Hər kəs böyüklükdə sözü boydadır,

Odur ki, hamını eşitmək olmur.

**I aparıcı:** “ Soyuqluq dünyanın özü boydadır, İçindən çölünə isitmək olmur ”. Bəli, ana dilinin doğmalığı, istiliyi, enerjisi gendən gəlmə bir şeydir. Onu heç nə əvəz edə bilməz. Doğma ana istəyini əvəz edən başqa bir istək olmadığı kimi. Amma özü boyda soyuqluğun içində doğmalığını gündən-günə itirən dünyada necə yaşayasan ki, dilinə, vətəninə, elinə, obana, ata-anana yaxın və əziz bildiklərinə istəyini, məhəbbətini qoruyub, saxlaya biləsən?!

**II aparıcı:** Cavabı bəlkə şeirin davamında axtaraq?!

Yoxa çıxanları ara sözündə,
Sözünün içində gizlənir hamı.
Söz de, gizlənəsən elə özün də,
Zamandan-zamana damsa, söz damır.

Nə yaxşı ki, söz var. Dilin barı-bəhəri söz. Dünyanın silib atdığı olub keçənini, ilim-ilim itirdiyini zaman-zaman qoruyub saxlayan, nəsildən-nəslə ötürən söz: Dədəm Qorqud sözü, Nizami Gəncəvi sözü və s. Məgər biz bütün böyük şəxsiyyətlərimizi filosoflarımızdan, loğmanlarımızdan tutmuş şairlərimizə qədər onların sözlərinin içindən dinləyib əzizləmədikmi? “ Zamandan-zamana daman ” söz əliboş gəlmir, söz sahiblərini bir-birilə qovuşdurur gələcək nəsillərlə.

Dilimin canında –söz şirinliyi,
Məni söz düzündə yaşatdı dilim
Dilimin varlığı öz diriliyim.
Yağıya söz ilə daş atdı dilim.

Dilim güvəncimdi əlim yalınsa,
Dilini yaşadan xalq ölə bilməz.
Qadağa qoyulsa, dönər qılınca,
Dil ağa tanımaz, dil kölə bilməz.

Ömrümə, günümə bayramdı dilim,
Elimdi, sözümdü, söhbətimdi o.
Ağımdı, nəğməmdi, laylamdı dilim,
Üçrəngli bayrağım, dövlətimdi o.

**I aparıcı:** Bu gün, dilimizin lüğət tərkibinə aramsız şəkildə axın edən,

əcnəbi sözlərin qarşısında tədris etdiyi dil dərslərində o tələbələrinə üzünü tutub belə deyir: “ Sevin dilimizi ananızı sevdiyiniz kimi; Sevin Vətənimizi  sevdiyiniz kimi. Hələ ki, belə sevin. Sonra görəcəksiniz ki, atadan da, anadan da əziz – Vətən var, doğma dil  var”.

**II aparıcı:** Ömrü axşama əyilir
Mən yaşayan zamanın.
Budağından ta kökünə
Dırmaşacam zamanın.

Bu şeir şairin dediyi kimi özünə, taleyimdəki  gətirməzliklərə istehzanın ifadəsidir. “ Budağından ta kökünə dırmaşacam zamanın ” misraları insan ömrünün kökünə – torpağın alt qatına işarədir. Əlbəttə, uşaqlıq-gənclik – qocalıq…

**I aparıcı:** Bəs “ Mən bir az xeyirxah mələk, bir az qisas mələyəm a…” xəbərdarlığı şairi əhatə edən çevrəyə nələri diqtə edir görəsən Şairin dili ilə desək, şair də insandır, inciyə də bilər, küsə də bilər, hirslənib əlindən xəta da çıxa bilər. Məgər səni gizli vuranı sən aşkar vura bilməzsən? Şeirlə… Əlbəttə ki, burada bir növ şairin də tikansız olmadığını ismarlamaq istəmişdir şairəmiz.

**II aparıcı:** Dəryanı göylərdən endir,
Damlanı Yerdən istəmə.

misralarında isə, damla Göydə olduğu halda, Göy – əlçatmazlıq, ucalıq, təmizlik, müqəddəslik kimi verilir. Dua edəndə də, dilək diləyəndə də əlimizi göyə açırıq. Mələkləri göydə təsəvvür edirik.Üzümüzü Tanrıya tutanda Göyə baxırıq. Peyğəmbər Əleyhissəlamın meracı göyün yeddinci qatı ilə bağlıdır. Lakin göylər elə də səxavətli deyil ki, hər diləyi eşidə və ona“ Dərya ”  bolluq bağışlaya. Bu göylərin xəsisliyi yox, əlçatmazlığıdır.Əlçatmazlıq isə həmişə ona yetişmək, qovuşmaq, o ucalıqda durmaq arzusunu doğurur. Bu arzunu reallaşdırmaq elə “ Dəryanı göylərdən endir ” məyə bərabər şeydir. Bəs onda Yerin – bu qədər sərvəti olan, canlı və cansız nə varsa, hamısını qoynunda bəsləyən Yerin günahı nədir ki, ondan bir “ damlanı ” belə götürməyi özünə qənimət  biləsən?

**I aparıcı:** İş günahda da deyil. İş ondadır ki, dünyanın nazı-neməti, zər-zibası, külli sərvəti Yerdə cəmləşib. Nağıllarda göydən üç alma düşərdi, Göylər Simurq quşlarının xeyir gətirən qanadları ilə bəzənərdi. Günəşi, Ayı, ulduzu ilə ilhamlandırardı göy təbb sahiblərini. Şair fikrincə, Günəş də. Ay da, ulduzlar da öz yerindədir. Amma daha o təbb yoxdur. İndi göylərdən " üç alma "nın düşməsi nağıl deyil. İndi göydən dəmir-dümür yağır, müharibələr yerdə meydan oxuyur:

**II aparıcı:**

Daşın, dəmirin nə günahı varmış? -
Yağdırır göylərdən yenə Göy kişi.
Başımız möhkəmdir dəmirdən, daşdan,
Yağdırma, sındıra bilməz, ey kişi.

Başımıza fikirdən çox, daş, dəmir yağır göydən. Bununla belə, Göy əlçatmazlığı şair üçün həmişə mövcuddur və bu əlçatmazlığa inadla can atan, axtardığını tapanda
" Ay inadım, nə yaxşı ki, geri durmadın" – deyib, uşaq kimi sevinən bir şairə bu Yer məkanında
Şairə Türkiyədə Bursa şəhərində keçirilən Uluslararası şeir şöləinin Əlişir Nəvai mükafatına (1992) və Bakı şəhərində keçirilən şeir müsabiqəsində İsa İsmayılzadə mükafatına (2000) layiq görülmüşdür. Birinci mükafatı 1992-ci il mayın 19- da ərəfəsində almışdı.

**I aparıcı:** Hər birimizin uzaq yola çıxarkən nələr çəkdiyimizi təsəvvür etməmək mümkün deyil: Bacı-qardaş ayrılığı, yurd-yuva ayrılığı, dost ayrılığı və s. O zaman ki - mayın 8-i 9 may Qələbə bayramı ərəfəsində Laçın məğlubiyyətimiz olmuş, Şuşamız işğal edilmişdi. Ümumiyyətlə Firuzə xanım bunlar barədə düşünüb, təlaşa düşmək istəmirdi. Onsuzda iki gün " Şeir Şölənınə gecikmişdilər " Ona görədə düşmənlərimizin bu işi pozmaq ehtimalı daha çox idi. Bir neçə dövlətin iştirak etdiyi Fransanın Strasburq şəhərində keçirilmiş və Azərbaycandan nümayəndə heyətində Firuzə xanımı iştirakçısı olduğu Türkyənin Uluslararası Şeir Şöləninin 8-ci ildönümündə yazdığı şeri Azərbaycanımızı bir daha yaxından sevdirmişdi.

**XATİRƏ:**

Dünyanın hər yerindən
Yığılıb gəlmişdilər.
Qayğıdan, məhəbbətdən
Yoğrulub gəlmişdilər.
Doğma türk dillərində
Çağrılıb gəlmişdilər.
Strasburq türk dilində
Şeir deyirdi o gün.

Bütün səviyyələrdə
Türk diliydi danışan.
Elə tarixcə qədim
Bir dil idi danışan.
Ünsiyyət – quş dilində;
Bülbül idi danışan.
Strasburq türk dilində
Şeir deyirdi o gün.

"Avropa Birliyi"nin
Divarları – qulaqda,
Türk dili şeir deyir
Sülh və azadlıq haqda..!
Deyirdi Qarabağdan
Danışırdı İraqdan,
Əfqandan, Fələstindən,
Sevgidən, məhəbbətdən,
Bir də uca Allahdan
Strasburq türk dilində
Şeir deyirdi o gün…

Şeir axıb gedirdi
Reyn çayı boyunca.
Bayır-bucaq, çöl-çəmən
Şeir içdi doyunca.
Payız yarpaqlarıydı

Şeir ardınca sevincək, -
Strasburq türk dilində
Şeir deyirdi o gün.

Türkün böyük oğlunun
Hünəri səslənirdi.
Altaydan Pireneyə
Səfəri səslənirdi.
Atatürkün, Heydərin
Zəfəri səslənirdi, -
Strasburq türk dilində
Şeir deyirdi o gün.

Şeirin qanı qaralır,
Durulurdu türkcədə.
Dünyada yeni dünya
Qurulurdu türkcədə.
Bəşər şeirin dilinə
Vurulurdu türkcədə.
Strasburq türk dilində
Şeir deyirdi o gün.

## Adın gələndə

(*Xalq yazıçısı İlyas Əfəndiyevə həsr olunub)*

**II aparıcı:** Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.
“ Dağlar arxasından ” əl edir “ üç dost ”,
Dağlar – xan qızının «Büllur sarayı».
İlişib «dağlarda qalan mahnını»
Daha nə axtaraq, nə də arayaq.
Daşsın gözümüzdən “ Bahar suları ”,
Su deyil, qan axsın «Söyüdlü arxdan».
Nahaqca qurutduq axar suları,
Bu qanı su ilə yuduq nahaqdan.

“ Üçaçılan ” qınında qalıb paslanır,
“ Salınan körpülər ” laxlayır daha.
Cavanlar sabahı görmək istəmir,
“ Qocalar geriyə baxmayır ” daha.
“ İşıqlı yollardan» keçdi min kərə,
“ Mənim günahım ”ın sınağı yoxdur.
Baxıram “ Məhv olmuş gündəliklərə ”,
“ Qəribə oğlan”ın günahı yoxdur.
Sözlər əzizlənir adın gələndə,
Ey ustad, Tanrıya ucalır sözün.
Deyən arzusuna çatır qələmlər,
Həzin duyğuların açılır gözü.

**I aparıcı:** Bu şeir isə Xalq yazıçımız İlyas Əfəndiyevə şairə tərəfindən həsr edilib. Şeiri oxuyanda görürük ki, İlyas Əfəndiyev kimi yazıçılarımız nə yaxşı ki var imiş və Azərbaycanımızın gözəlliklərini əsərlərində bizlərə qoyub gediblər. Nə yaxşı Şuşamızın, Kəlbəcərimizin, Zəngilanımızın göz oxşayan gözəlliklərini bu əsərlərdə tapırıq. İnsallah tezliklə, haqq öz yerini tapacaq, qisas yerdə qalmayacaq. V cilddə yer alan “ Ruhun qisası ” povesti bu mövzuda yazılmış nümunələrdəndir. Mövzu aydındır: Qarabağ, erməni vəhşiliyi, xalqımızın ən ağrılı problemlərindən biri. Bu mövzuda yüzlərlə poetik nümunə, onlarla nəsr əsəri yazılıb. Lakin Firuzə Məmmədlinin orijinal, fərqli deyim, duyum tərzi bu mövzuda da özünü göstərib.“ Ruhun qisası” povestində müəllif,türklərin qanına susamış bir erməni ailəsində dünyaya gələn, xalqımıza düşmən ruhunda tərbiyə alan qızın ruhən necə əzab çəkməsini təsvir edir, müharibədə qızın babası tərəfindən başı kəsilən Əhməd adlı bir türk şəhidinin ruhunun onun cisminə daxil olub son anda intiqam aldığından danışır.

**II aparıcı**: Struktur baxımından bitkin hekayələr toplumundan ibarət olan bu povest süjet bağlantılarının orijinallığı, təsvir imkanlarının əyaniliyi ilə seçilir.Vətənə, torpağa bağlılıq, milli təəssübkeşlik hissi müəllifin digər nəsr nümunələrində – “Atilla, Atilla, Atilla!“, “ Müsibət ” hekayələrində daha qabarıq şəkildə əks olunub. Burada Torpaq, vətən, milli qeyrət hissi Firuzə Məmmədli nəsrinin başlıca motivlərindəndir.1980-ci ildə qələmə alınmış “ Sular sonası” povesti də belə nəsr nümunələrindəndir.

Müəllif, əsəri 80-ci illərdə yazmasına baxmayaraq, ilk dəfə 2005-ci ildə çap etdirib. “ Sular sonası ” povestinin süjet xətti Iki gəncin – Tərlan və Billurənin faciəvi taleyi üzərində qurulub.Bununla yanaşı, müəllif ümumi hadisələr fonunda təkcə gənclərin ağır həyatını deyil, bir çox ictimai-siyasi hadisələrin real təsvirini bədii planda əks etdirib. Əsərin əsas qəhrəmanı Tərlan əmisi Abdullanın evində böyüyür. Tərlan “ Fəhlə-kəndli hökuməti”ndə bir qul kimi istismar olunur.Məhz gəncliyində çəkdiyi iztirablar, məhrumiyyətlər, onu cinayətə sövq edir. Atası Abdullanın haram çörəyi ilə böyüyən əmisi qızı Billurəni öldürəndən sonra dəmir barmaqlıqlar arasına düşən Tərlan etdiyi cinayətin iztirablarını yaşayır.

**I aparıcı:** Əslində, Tərlanın endirdiyi ölümcül zərbə iyrənc sovet ideologiyasına yönələn zərbə idi. O ideologiyanın ki, yetmiş il xalqımızın gözünə kül üfürdü, sonra özünün məhv olduğunu görüb, Qarabağ müharibəsini, 20 yanvar faciəsini, Xocalı soyqırımını törətdi. Prokurorun Tərlana qarşı irəli sürdüyü ittihama diqqət yetirək:

**II aparıcı:** “...Ölkəmizin sosializm cəmiyyəti qurduğu bir dövrdə, dünya proletariatının bizə, bizim quruluşa, bizim qazandığımız qələbələrə yeganə xilas yolu kimi baxdığı, heyran qaldığı bir dövrdə içərimiz həşərat ömrü yaşayan,ağacı içindən qurd vuran kimi bizi daxildən dağıtmağa çalışan xalq düşmənləri, onların törəmələri hələ də yaşamaqdadır ”.

**I aparıcı**: Müəllif, prokurorun çürük pafosdan ibarət nitqini əsərə daxil etməklə bir daha təsdiqləyir ki, Tərlanın qatilə çevrilməsi, məhz utopiyadan ibarət sərsəm ideologiyanın nəticəsidir. Nasir Firuzə Məmmədlinin bu məsələləri bədii fakturaya çevirməsi əsl vətəndaşlıq mövqeyi idi. Povestin digər qəhrəmanlarından biri Billurədir. Billurə gözəldir, lakin onun gözəlliyi zahiridir. O, atası Abdullanın sadə insanlarda oğurladığı haram tikə ilə böyüyüb. Tale elə gətirir ki, bir zamanlar Abdullanın törətdiyi insanlıqdan kənar əməllər onun qarşısına çıxır. Atası pul-rüşvət hesabına öz dövranını sürsə də, Tanrı onun əməllərinin qarşılığını qızı Billurənin faciəvi həyatında verir. Dörd körpə qardaşı ilə tək qalan Billurə əlacsızlıqdan çirkaba yuvarlanır, həm özü, həm də tərbiyə aldığı cəmiyyət Tərlanın əli ilə cəzalandırılır.

**I aparıcı:** Firuzə Məmmədli " Sular sonası " povestində Azərbaycan nəsrində təsadüf olunmayan bədii yeniliyə imza atıb. Nasir, əsərin sonunda povestdə cərəyan edən hadisələrin əsas personajlarının sonrakı taleyinə aydınlıq gətirib, onların əsərə olan münasibətlərini işıqlandırıb. " Seçilmiş əsərlər"in V cildinə daxil olan nəsr nümunələrindən biri də " Köhnə məscid həyəti " povestidir.Əsərin olduqca maraqlı süjet xətti var. Povestin ilk bölümlərində köhnə məscid həyəti təsvir olunur. Bu məscidin həyətində bir erməni ailəsinə məxsus qaraj var. Məhz bu anormallıq hadisələrin sonrakı inkişafında baş verən anomaliyaların səbəbkarı, enerji mənbəyi olur.

**II aparıcı**: Əsərdə cərəyan edən hadisələr – pişiyin quyruğunun uzanması, insan ruhunun tərəf-müqabillərinə köçürülməsi də bu səbəblə bağlıdır. Fikrimizcə, yaşadığımız tarixi gerçəkliklərin bu qədər aydın və sərt şəkildə bədii nəsrə gətirilməsi, müəllifin yaradıcılıq uğru ilə bərabər, Azərbaycan nəsrinin ideya-məzmun zənginliyi ilə bağlıdır.

**I aparıcı:** Bütün yaradıcılığı boyu cəmiyyəti narahat edən mövzulara toxunan, zamanın nəbzini tutan, yaratdığı obrazlarda qlobal problemləri işıqlandıran Firuzə Məmmədli V cildində körpə balalarımızı da unutmayıb. Müəllif kitabda uşaqlara həsr etdiyi nəsr nümunələrinə belə bir başlıq verib: " Böyüklərə uşaqlar haqqında ".

**II aparıcı:** " Pərvanə " hekayəsində altı kiçik hekayətlə bizi balaca Pərvanənin uşaqlıq dünyasına aparır. Biz Pərvanənin məsum, pak uşaqlıq dünyasında, geridə qalmış uşaqlığımızı görürük. O, uşaqlığımızı ki, o illəri xatırlayanda üzümüzə qeyri-ixtiyari təbəssüm qonur, zamanın gərdişindən, həyatın çətin, dolanbac yollarından geri qayıdıb, balaca Pərvanə, dəcəl Zaur olmaq istəyirik. V cilddə yer alan "Mırr-Mıy","Ad günü " kimi hekyələri oxuduqca əslində əhəmiyyət vermədiyimiz bəzən kiçik bir təbəssümümüzü əsirgədiyimiz uşaqların necə böyük dünyalarla yaşadığının şahidi olursan. Bunu həssas yaradıcılıq duyumu ilə hiss edən Firuzə Məmmədli böyükləri, balaca balalarımıza daha diqqətlə yanaşmağa çağırır.

**I aparıcı:** Mırr-Mıyın balaca qəhrəmanı Arzu bilirsiniz niyə nağıl qəhrəmanlarından üz döndərdi. Artıq o böyüyüb televizorla dostlaşandan sonra. Ona təəcüblü gəlməyə başladı ki, nə üçün nağıl adamları təyyarəni qoyub, uçan xalçaya minirlər,

televizor olduğu halda sehirli güzgüyə baxırlar, Məlikməmməd metro dura-dura yerin altına iplə sallanır. Belə də yalan olar? Nağıllar lap uşaq aldatmaqdır.

**II aparıcı:** Televizorla başlanan dostluğu isə onun cizgi filmləri ilə ilə başladı. Buradakı heyvanların danışmaqları onu cəlb etdi. Amma Arzu öz " Xallı " adında pişiyini nə qədər edirdisə danışdıra bilmirdi.Sadəcə iki söz öyrəndi. " Mırr ", " Mıyau ". Mırr o deməkdi ki, sonuncu " r " sammitinin uzadılması və ya qısaldılması ilə " hardasan, darıxmışam" deməkdir.

Firuzə xanımın " Seçilmiş əsərləri"in V cildinin bir bölməsi də, Ömrün axarı, arzularımın baharı " adlanır. Bu bölmədə müəllifin 1992-ci ildə Türkiyə Cümhuriyyətində keçirilən "Şeir şöləni"nə gedərkən yazdığı səfər qeydləri toplanıb. Bu qeydləri oxuyarkən müəllifin uzun illər həsrətində olduğumuz Türkiyə Cümhuriyyəti ilə baş tutacaq görüşün həyəcanını, səfərə özü ilə bərabər apardığı Qarabağ yükünü, ağrılarını duymamaq mümkün deyil."Müsahibələrdən seçmələr" bölməsində isə F.Məmmədlinin ötən illər ərzində KİV-ə verdiyi müsahibələr dərc edilib. Burada oxucular onun yaradıcılıq düşüncələri, sənət-poeziya mükalimələri ilə tanış ola bilərlər

**I aparıcı:** " Seçilmiş əsərləri "in V cildinin son bölməsində müəllifin Elmi-publisistik məqalələri yer alıb. Belə məqalələrdən biri orta əsrlərin və Azərbaycanın ilk qadın şairi olan Məhsəti Gəncəvinin yaradıcılığına həsr edilib. Müəllif bu məqalə də uzun zaman puçluğunu sübuta yetirir. Kitabda yer alan tədqiqatlardan biri də " Y.V. Çəmənzəminli – daim gündəmdə olan yazıçı" adlanır. Bu əsər bir daha təsdiqləyir ki, F.Məmmədli Y.V.Çəmənzəminli yaradıcılığını hərtərəfli, geniş tədqiq edən alimlərimizdəndir. "

Seçilmiş əsərlər "in V cildində yer alan elmi-publisistik məqalələr sırasında müəllifin fərqli illərdə yazdığı "Anarın "Ağ liman" əsərində tekstoloji anlamlar"" Anar: şəxsiyyət və yaradıcılıq ucalığı ", " Vaqif Yusifli ömrünə təbrik buketi ", " Qapalı semantika" kimi dəyərli əsərlərini mütləq qeyd etmək Lazımdır.Ümumiyyətlə, "Seçilmiş əsərləri "nin V cildi gərgin zəhmətlə uzun bir yaradıcılıq yolu keçmiş Firuzə Məmmədlinin hələ də davam edən və davam edəcək yaradıcılıq yolunun çox dəyərli bəhrəsidir

**II aparıcı:** Mövzuca Qarabağ , erməni vəhşiliyini tərənnüm edən "Ruhun qisası" povesti Firuzə Məmmədli qələmindən süzülüb gələn misra, sətir orijinallığı ilə seçilir. də belə nümunələrdəndir. Əsərin mövzusu aydındır: Qarabağ, erməni vəhşiliyi, xalqımızın ən ağrılı problemlərindən biri. Bu mövzuda yüzlərlə poetik nümunə, onlarla nəsr əsəri yazılıb. Lakin Firuzə Məmmədlinin orijinal, fərqli deyim, duyum tərzi bu mövzuda da özünü göstərib. " Ruhun qisası "povestində müəllif, türklərin qanına susamış bir erməni ailəsində dünyaya gələn, xalqımıza düşmən ruhunda tərbiyə alan qızın ruhən necə əzab çəkməsini təsvir edir, müharibədə qızın babası tərəfində başı kəsilən Əhməd adlı bir türk şəhidinin ruhunun onun cisminə daxil olub son anda intiqam aldığından danışır. Struktur baxımından bitkin hekayələr toplumundan ibarət olan bu povest süjet bağlantılarının orijinallığı, təsvir imkanlarının əyaniliyi ilə seçilir Vətənə, torpağa bağlılıq, milli təəssübkeşlik hissi bu əsərlə yanaşı müəllifin digər nəsr nümunələrində – "Atilla, Atilla, Atilla!", "Müsibət" hekayələrində daha qabarıq şəkildə əks olunub. Torpaq, vətən, milli qeyrət hissi Firuzə Məmmədli nəsrinin başlıca motivlərindəndir.

" O 18 yaşlarında bir mesxetitürkü idi. Özbəkistandan köçüb buraya pənah gətirmişdilər. Adı Əhməd idi. Hə Əhməd Abdullayev. " Qarabağ bizimdir deyib canını tapşırdı"

Əsər Əsirlikdən qurtarmış bir qadının dediklərindən gətirilmiş bu sitatla başlayır.

( İşğal olunmuş şəhəri xatırlayan səhnə qurulur.)

**Aparıcı:** Hər yanda ağlaşma, fəryad, köməyə səsləyən, imdad diləyən nidalar Top atəşlərindən yerlə yeksan olmuş evlərin xarabalığı üstündən keçib ora-bura şığıyan tanklar. Avtomat səsləri eşidilir. İşağal qoşununun maqnitolada küçəni bürüyən rok musiqisi.

**Aparıcı:** Çox keçmir ki, icra hakimiyyəti qarşısındakı meydançaya bir dəstə əsir cavan gətirirlər.

**Əsir:** Qəzəbli, kinlə, nifrətlə dolu " Haqqa səcdə etməkdənsə, əsirlərdən biri " Mən intiqam almalıyam" deyə qışqırır." O məni səsləyir məni."

**Aparıcı:** İçindən haqq səsi ona deyir: " Sən şeytana satılmısan, Sən

intiqam ala bilməzsən.” O, sənin əlində deyil.
Bundan sonra qayğısız bir erməni ailəsinə aparılan bu əsir,orada böyüyür.Yaşadığı malikanəni ailəsi dünyanın cənnəti adlandırırdı. “Qoca baba ona tez-tez bu torpaq haqqında danışır, buraları almaq onlara necə qanı bahasına başa gəldiyini başa salırdı. ” Qoca babanın otağında türk xalçasının üstündə asılmış bıçaq baba üçün xüsusi qiymətli idi.

**Əsir:** Babam tez-tez deyirdi:“Bu qız bizlərə oxşamır, çox ürəklidi, mənə də çox qəribə baxır. Bu hadisədən 10 il keçir. Mən artıq Moskvanın fəxri universitetlərinin birində təhsil alıram. Yanıma anam gəlir. Babamın xəstə olduğunu söyləyir. Gedib bir gunlük olsa belə onu görməliyəm. İstər - istəməz anamdan babamın xalçası və bıçağını soruşuram. Babam məni görən kimi hiylə və kin gəzdirən baxışları ölgünləşdi. Zarıltısı xırıltl, xışıltı ilə əvəz olundu. Ağzı qanlı bıçaq yerdə düşüb qalmışdı.Əl izlərini götürmək üçün müstəntiq içəri daxil oldu:

**Müst-q:** Otaqdan axırıncı kim çıxıb? Doğurdan da, yəqin otaqdan axırıncı çıxan babamı diri görən axırıncı şəxsdir.Amma artıq babam ölü idi.

**Nəvə:** Mən otağa girəndə babam salamat idi. Əslinə qalsa otaqdan axırıncıı mən çıxmışam. O, məni otaqdan qovmağa çalışırdı.

**Müst-q:** Niyə?

**Nəvə:** Çünki o məni heç sevmirdi.

Məhkəmə zamanı müstəntiqə cavablarım belə oldu. Cavablarım hamını çaş-baş qoydu:

**Müst-q:** Babanızı niyə öldürdünüz?

**Nəvə:** Mən öldürməmişəm.

**Müst-q:** Bəs kim öldürüb?

**Nəvə:** Əhməd.

**Müst-q:** Axı siz dediniz Əhməd öldürüb. Deməli siz öldürübsünüz.

**Nəvə:** Yox düz demirsiniz, mənim heç nədən xəbərim yoxdur. Mən 40 il bundan qabaq babamın qətlə yetirdiyi Əhməddən danışıram. O, olü də olsa ruhu diridir. Bunun üçün mənim əllərimdən istifadə etmişdir. Qisas heç vaxt yerdə qalmır.

**I aparıcı:** Bu əsərlə Firuzə Məmmədlinin müharibə mövzusu qurtarmır. “ Müharibə ” şeiri bu mövzuda yazılmış çox təsirli şeirlərdəndir.

(oxucular şeiri söyləmək üçün səhnəyə gəlir)

**I oxucu:** Qalxdım sümük – sümük, dikəldim mil-mil,
Sökdüm ilmə-ilmə gözümdən yaşı.
Sıyırdı qolunu içimdə bir kin,
Çökdüm intiqama ayaqdan-başa

**II oxucu:** Çökdüm günlərimin ayaq səsinə
Çökdü, dabanımda, vurdu ürəyim.
Tankların, topların oyaq səsinə
İçimdə min qala qurdu ürəyim.

**I oxucu:** Məni səngər-səngər qurşadı bu yer
Hər səngər içində əsgər göyərdi.
Çiynində yaralı daşıdı bu yer.
Hər yaradan təzə səngər göyərdi

**II oxucu:** Meyd qamətində şəhidlər artdı,
Ağlar söyüdlərlə bəzəndik yetər.
Söyüşlər, təhqirlər, təhdidlər artdı...
Yetər bir bu qədər təzəlik yetər

*Səhnəyə məktəbli oxuculardan "**İgid ölər, ad-san qalar"** şeirindən bir parçanı təqdim etmək üçün aparıcı, ana və oğul rollarının ifaçısı çıxır.*

*Aparıcı:*
On il bundan irəli
Bu körpələr kimiydi
Düzdü bir az cüssəli,
Düzdü, bir az iriydi.

Bir az sözə baxandı,
Bir az vurub-yıxandı.
Dəcəlliyi də vardı,
Şıltaqlığı da vardı

Oyuncaq tapançası,
Tankı, topu var idi
Ən cəsur uşaqlarla
Yoldaş idi, dost idi.

Hər gecə yuxusunda
Müharibə görürdü,
Gah hücuma keçirdi,
Gah da səngər hörürdü.

Əskərlik tacdı, taxtdı,
Çatdı onun da vaxtı.
Yazana oğul olsun
Vətənə oğul olsun.
*Oğul əsgərliyə gedir. Əsgərliyə getmiş oğlunun zəngi gəlir telefona . Ana telefonu qaldırır.*

Apaydın bir səs ilə
Telefon gəldi dilə.
O idi, öz oğluydu.
O, boy-buxunlu körpə.

Səsi kişiləşsə də,
Ana tanıdı onu.
Əvvəl bir az qınayıb
Sonra yanıdı onu.
*Ana*
Göylərdən ölüm yağır,
Qorun, ölümdən qorun.
Dost əlindən bərk yapış,
Düşmən əlindən qorun.

Əcəl deyil, yaxındı,
Xəta bizə qohumdu.
Qoruyanın yoxundu,
Özüm gəlincən qorun.

Üç balamın kiçiyi,
Qorun, evim- eşiyim.
Qorun , a sonbeşiyim,
Qorun, balacam, qorun.

*Oğul*
Nə qorunum ay ana,
Düşmən üzü yavadı.
Yuzcə addım o yana
Tala yuva-yuvadı.

Ehtiyatsız bir addım-
Göyə sovrular adam.
Yağışda biz, qarda biz.
Dördgözük səngərdə biz.

Dəyanətik, arxayıq
Vətənə biz, yurda biz.
Bir də ki, lap, ay ana,
Cavan ölmək hünərdi.
Şəhid olmaq zəfərdi.
O dünya bir səfərdi,
Qayıtmağa yolu yox.

*Aparıcı*
Ölüm var ki, ölümsüzlük zirvəsi,
Diri var ki, ölüb, qalır kölgəsi.
Bu dünyanın hər bucağı, bölgəsi
Ya matəmdi, ya da ki, toy-büsatdı,
Arzusuna kim çatmadı, kim çatdı?

*Oğul*
Dayanmışam keşiyində yurdumun,
Əskəriyəm mən də Milli Ordumun.
Yaşarammı gəncliyimin ardını?
Deyəmmərəm, hər şey olur, həyatdı,
Arzusuna kim çatmadı, kim çatdı?

On dörd aydı, xidmətdəyəm, əskərəm,
Millətimi gözlərimdə bəslərəm.
Üz tuturam məni sevən kəslərə,
Deyirəm ki, şəhid oldum, ölmədim,
Bu xidməti başa vura bilmədim.

*Ana*
Nə gecədi, nə gündüz,
Nə səhərdi, nə axşam.
Allah, bir xəbər yetir,
Mən nigaran qalmışam.

*Aparıcı*
Bir ümid ardınca qanadlanaraq
Uçan göyərçinlər yaralı gəldi.
Qaldırdı çiyninə qara xəbəri,
Bu matəm bir eli aradı, gəldi.

*Ananın oğlu şəhid olur*

*Ana*
Allah, inanmadıq, bu necə yuxu,
Bu necə yuxudu, ayıl, can bala.
Əskər yerişiylə evindən çıxıb,
Şəhid ölümüylə qayıdan bala.

Səsin əzizlənir xatirələrdə,
Şəninə, adına çiçək səpilir.
Varlığın gizlənir xatirələrdə,
Yoxluğun ürəyə, gözə təpilir.

Silahın, səngərin darıxır bu gün,
Budurmu sərhəddin, hasarın, bala?!
Kövrəltdi Vətənin tarixin bu gün
Sənin bir cümləlik məzarın, bala.
*Aparıcı*
Cavan ölmək hünərdi,
Şəhid olmaq zəfərdi.
O dünya bir səfərdi,
Qayıtmağa yolu yox.

Şəhid məzarları... Güllər təzə -tər,
Yaralar hələ də qan verir burda.
Hələ də üzünü cırır dərd, kədər,
Hələ də çiçəklər can verir burda

Şəhidlik yuxu deyil,
Ayıqlıq məqamıdı
Vətən yolunda hər an
Sayıqlıq məqamıdır

Şəhidlik ölüm deyil,
Dirilikdi şəhidlik.
Cəsurluqdu, mərdlikdi,
İgidlikdi şəhidlik.

O, Vətənin torpağa
Sancılan dayağıdır,
O, azadlıq yanğısı,
Qələbə bayrağıdır.

İntiqamı, qeyrəti
Ruhunda cəm edəndi.
Ölümün ağuşunda
Ölümü ram edəndi.

“Olmaz andı-amanı
Şəhidi yox millətin”.
Şəhidi yoxsa əgər,
Sabahın divanında
Şahidi yox millətin.

Yaşa nur məkanında,
İşıq ömründə, şəhid.
Tarixlər qocalacaq
Uşaq ömründə, şəhid.

Bir bayraqsan,
əlində tutan
sənlə ucalır.
Xalqın sənə baş əyir,
Vətən sənlə ucalır.
*İfaçılar tamaşaçılar qarşısında baş əyib, bayrağı öpüb, səhnədən ayrılırlar.*

**I aparıcı:** Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu. F. Məmmədlinin qələmə aldığı "Xocalı" şeirində Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir.

**II aparıcı:** Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, "4 mesxeti türkü və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar".

**I aparıcı:** Ədəbiyyatımızda bu mövzunun acısını Firuzə Məmmədlidə qələmə almışdır.

Bu qəmin göz yaşı mənəm,
Sinəsində daşı mənəm.
Bu fəryadın saçı mənəm,
Döşənmişəm yollarına.

Uzalıydı əlin mənə,
Güvənirdi elinmənə.
Məscidlərin qənim mənə, -
Girəmmədim qollarına.

Ölüm. üzüsulu gedim,
Bu qayıtmaz yolu gedim.
İsmət gedib, Alı gedib,
Yol düşüb oğullarından.

**I aparıcı:** Deyirlər, dahi adamların ömrü uzaq ulduzlara bənzəyir. Amma dahiləri bizə yaxın olan günəşə də bənzətmək olar. O günəşə ki, biz onun işığı ilə nurlanır, ətraf mühiti duyuruq. Lakin başımızı qaldırıb ona baxa bilmirik. Baxsaq da onu görə bilmirik.Gözümüz qamaşır ona baxanda.

**II aparıcı:** Bəli, bu gün əminliklə deyə bilərik ki, Firuzə Məmmədli poeziyası da ədəbiyyatımızı zənginləşdirən sanballı sənət xəzinəsidir.

Son

Ədəbiyyat siyahısı:

1.Gümüşü damla. Bakı: Gənclik, 1972, 48 səh.
2.Yoluma bahar düşüb, Bakı: Gənclik, 1978, 56 səh.
3.Sənin ömrün. Bakı: Yazıçı, 1982, 60 səh.
4.Yetkinlik. Bakı: Yazıçı, 1989, 192 səh.
5.Bir qarış ucalıq. Bakı: Gənclik, 1995, 165 səh.
6.Bədii dilin estetik mənbələri. Bakı: APİ-nin nəşriyyatı, 1997, səh.
7.Məni mənlə bölən dünya. Bakı: Gənclik, 1999, 270 səh.
8.Seçilmiş əsərlər. Bakı: (iki cilddə). I cild, Nurlan, 2002, 433 səh.
9.Seçilmiş əsərlər. Bakı: (iki cilddə). II cild, Nurlan, 2002, 446 səh.
10.Məmmədli F. Seçilmiş əsərləri V cild, Bakı:Nurlan. - 2009

**Mətbuatda:**

Sadıq B. Poetik düşüncənin kəşf olunmamış zirvəsi//Kaspi. – 6 iyul. – 2013. – səh 21.

**Tərcümələri:**

1.M.Qorki. Bir samovar var idi. Bakı: Gənclik, 1977, 50 səh.
2.Afrika nağılları. Bakı: Yazıçı, 1988, 370 səh. (şərikli).
3.G.Kubliski. Bütün yer kürəsi. Bakı: Gənclik, 1994, 246 səh.

**Redaktor:** **Şəhla Qəmbərova - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edəni: Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri**